


*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 55 (23.217)

*20 mart 2019-cu il, çərşənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Martın 19-da Bakıda Azərbaycan xalqının milli bayramı – Novruz münasibətilə ümumxalq şənliyi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Novruz şənliyində iştirak ediblər.

Dövlətimizin başçısı və xanımı Bakının Fəvvarələr meydanına gəliblər.

Bayram şənliyinin iştirakçıları dövlətimizin başçısını və xanımını hərarətlə qarşılayıblar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sakinlərlə söhbət ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva burada “Torpaq əlimdə, bahar ürəyimdə” xeyriyyə yarmarkası ilə tanış olublar.

Sonra Prezident İlham Əliyev Novruz şənliyində iştirak edən xarici ölkələrin vətəndaşları ilə görüşüb söhbət edib.

Daha sonra dövlətimizin başçısı və xanımı İçərişəhərə gələrək burada “Bahar qalası” festivalı ilə tanış olublar.

Bahar qızı dövlətimizin başçısına bayram xonçası təqdim edib.

Novruz bayramının əsas personajları olan Kosa və Keçəl Prezidenti və xanımını bayram münasibətilə təbrik ediblər.



# Naxçıvanda Novruz bayramı münasibətilə ümumxalq şənliyi keçirilib









Ölkə Prezidenti cənab İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikində demişdir: ***“Azərbaycan torpağında Novruz bayramı daim yad təsirlərdən uzaq tutulmuş və heç bir qüvvəyə onu insanlarımızın qəlbindən çıxarmaq imkanı verilməmişdir. Biz onun böyük mənəvi gücü sayəsində keçmişimizin mürəkkəb dövrlərində belə nikbinliyimizi və gələcəyə inamımızı qoruyub saxlamağı bacarmışıq”.***

Hər il Naxçıvan Muxtar Respublikasında Novruz bayramının quruculuq, əmin-amanlıq və sabitlik şəraitində qeyd olunması ümummilli liderimiz Heydər Əliyev siyasi xəttinin bəhrəsidir.

Martın 19-da “Naxçıvanqala” Tarix Memarlıq Muzey Kompleksində Novruz bayramı münasibətilə ümumxalq şənliyi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ailə üzvləri ilə birlikdə bayram şənliyində iştirak etmişdir.

Milli geyimli qız Ali Məclisin Sədrinə səməni təqdim etmişdir.

El ağsaqqalı Dədə Qorqud Novruzun gəlişi münasibətilə xeyir-dua verərək demişdir: “Bu gün Oğuz yurduna Novruz gəlir. Elobaya yeni il qədəm qoyur. Ötən il də böyük əməllərlə yadda qaldı. Naxçıvanımız İslam mədəniyyətinin və Azərbaycan gənclərinin paytaxtı kimi möhtəşəm tarix yazdı; qədim Oğuz igidləri yurdumuzun bir parçası olan Günnütdə bayrağımızı yenidən dalğalandırdılar. Qorqud babanız deyir ki, uğurunuz davamlı olsun! Vuran əlləriniz var olsun! Adət-ənənələrimizi özündə yaşadan Novruz bayramını elimiz-obamız neçə illərdir ki, əmin-amanlıq içində qarşılayır. Düşərli olsun! Ey bayram libaslı Naxçıvanım! Qazanılan uğurların dillər əzbəridir. Hünərvər oğul və qızların abad olmuş ulus-oymaqda toy-büsat qurur, bugünkü xoş növrağınla fəxr edirlər. Qorqud atanız deyir ki, bu uğurların bir səbəbkarı, bir yaradanı var. Ömrü uzun olsun! Yaradan qollarınız var olsun! Siz xalqı yaşadırsınız, xalq da Sizi yaşadacaqdır!”

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Novruz bayramı və ilin axır çərşənbəsi olan Od çərşənbəsi münasibətilə muxtar respublika əhalisini, şəhid ailələrini, Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən hərbi hissələrinin şəxsi heyətlərini təbrik etmiş, xoş bayram ovqatı arzulamışdır.

Ali Məclisin Sədri demişdir: Novruz bayramı göstərir ki, Azərbaycan xalqı nə qədər böyük tarixə və zəngin mənəvi irsə sahibdir. Ulu öndərimiz Heydər Əliyev xalqımızın tarixi yaddaşının, Novruz ənənələrinin yaşadılması qayğısına qalaraq demişdir: ***“Novruz bayramının müstəqil respublikamızda dövlət səviyyəsində qeyd edilməsi öz milli köklərimizə, adət-ənənələrimizə, tarixi keçmişimizə dərin ehtiram bəslədiyimizi və sarsılmaz tellərlə bağlı olduğumuzu nümayiş etdirir”.***

Bu gün ulu öndərimizin milli dəyərlərimizin yaşadılması ilə bağlı müəyyənləşdirdiyi yol uğurla davam etdirilir. Ölkə Prezidenti cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində müstəqil Azərbaycan və onunla birlikdə milli-mənəvi dəyərlərimiz də dünyada tanınır və qəbul edilir. Xalqımızın milli dəyərləri içərisində Novruz bayramı mühüm yer tutur. Bu bayramın ən böyük üstünlüklərindən biri xalqımızın quruculuq əzmini yaşatmasıdır. Hər il olduğu kimi, bu il də Novruz bayramı ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında əmin-amanlıq və iqtisadi yüksəliş şəraitində qeyd olunur. Ötən il muxtar respublikada həyata keçirilən tədbirlər dayanıqlı inkişafı təmin etmiş, bütün makroiqtisadi göstəricilər üzrə artım əldə edilmişdir. Bu gün qeyd etmək xoşdur ki, sosial-iqtisadi inkişaf sahəsində əldə olunan uğurlar əhali gəlirlərinin artmasına, məskunlaşmaya və demoqrafik vəziyyətə də öz təsirini göstərmiş, muxtar respublika əhalisinin sayı əvvəlki illərlə müqayisədə artaraq 456 min nəfərdən çox olmuşdur.

“Şübhəsiz ki, insan əməyi, zəhməti olmadan bu inkişaf mümkün deyil”, – deyən Ali Məclisin Sədri muxtar respublikamızın inkişafına öz töhfəsini verənlərin hamısına təşəkkürünü bildirmişdir.

Ali Məclisin Sədri demişdir: “Builki Novruz bayramını Naxçıvanın muxtariyyət qazanmasının 95 illiyi və muxtar respublikada elan olunmuş “Ailə təsərrüfatları ili”ndə qeyd edirik. Əminik ki, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət və bu yolun ölkə Prezidenti tərəfindən uğurla davam

*Ardı 2-ci səhifədə*





etdirilməsi ölkəmizi və onun Naxçıvan Muxtar Respublikasını daha böyük tərəqqiyə qovuşduracaq, dövlət müstəqilliyimiz və sabitlik daha da möhkəmlənəcəkdir”.

Ali Məclisin Sədri bir daha tədbir iştirakçılarının Novruz bayramını təbrik etmiş və bayram tonqalını yandırmışdır.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamına uyğun olaraq muxtar respublikada xalq yaradıcılığının öyrənilməsi, ənənəvi sənət sahələrinin dirçəldilməsi, onların geniş şəkildə tətbiq və təbliğ olunması istiqamətində mühüm işlər görülmüşdür. Novruz bayramında “Xalq yaradıcılığı günləri”nin keçirilməsi də mühüm əhəmiyyətə malikdir. Builki Novruz bayramında da musiqi kollektivlərinin və xalq sənətkarlarının iştirakı, Novruz adətlərimizin və milli dəyərlərimizin nümayişi böyük marağa səbəb olmuşdur.



Naxçıvan Dövlət Filarmoniyası və Naxçıvan Dövlət Uşaq Filarmoniyası kollektivlərinin ifasında “Naxçıvan” rəqsi təqdim olunmuşdur.

Xalqımızın qədim rəqs və musiqi mədəniyyəti ilə sıx bağlı olan qədim musiqi alətlərimizin təbliği və tanıdılması vacib məsələdir. Naxçıvan Dövlət Filarmoniyasının Qədim Musiqi Alətləri Ansamblının formalaşması və fəaliyyəti bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Şənlikdə ansamblın və muğam studiyasının ifasında xalq mahnılarımız səslənmişdir.

Naxçıvan şəhər sakinləri Bəyməmməd Ağaməmmədov və Gülsüm Novruzova Ali Məclisin Sədri ilə görüşərək bayram təbriklərini çatdırmışlar.

Azərbaycan aşıq sənəti xalq yaradıcılığının mühüm tərkib hissələrindən sayılır. Dastanlarımızdan, xalq deyimlərindən də məlum olduğu kimi, əcdadlarımızın bir əlində qılınc olanda, bir əlində də saz olub. Bu gün də xalqımızın milli dəyərlərinin, vətənpərvərlik duyğularının, torpaq, yurd sevgisinin yüksək poetik tərənnümü olan aşıq sənətinə muxtar respublikada xüsusi qayğı ilə yanaşılır. Keçirilən el şənliklərində saz havalarına geniş yer verilməsi bu diqqət və qayğının təzahürüdür. Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyinin üzvlərinin ifa etdikləri “Naxçıvani” aşıq havası tədbir iştirakçılarında xoş ovqat yaratmışdır.

Musiqi kollektivlərinin ifasında təqdim olunan “Doğma yurdum Naxçıvanım” mahnısı və “Qarabağ” yallısı alqışlarla qarşılanmışdır.

Tulum, zurna, balaban kimi qədim çalğı alətlərimiz musiqi mədəniyyətimizlə yanaşı, həm də dəyərlərimiz və adət-ənənələrimizlə sıx bağlıdır. “Kitabi-Dədə Qorqud” və “Koroğlu” dastanlarında, eləcə də şair və yazıçılarımızın əsərlərində adları çəkilən qədim musiqi alətlərinin hər biri özünəməxsusluğu ilə fərqlənir. Bu gün muxtar respublikada bu alətlərin bərpası diqqət mərkəzində saxlanılır, musiqi məktəblərində tədris olunur. Tədbirdə tulum, zurna, balaban və nağaradan ibarət “Tulum” kvartetinin ifası olmuşdur.

Muxtar respublikanın beynəlxalq titullu şahmatçıları Ali Məclisin Sədrini bayramlar münasibətilə təbrik etmiş, xatirə şəkli çəkdirmişlər.

Culfa rayon Bənəniyar kənd sakini Həsənəli Əsgərov demişdir: Ölkəmizin hər yerində – şəhərlərdə, kəndlərdə bayramlar yüksək əhval-ruhiyyə ilə qeyd olunur. Sabitlik şəraitində yaşamaq, işləmək ən böyük xoşbəxtlikdir. Ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycanı dünyada tanıdır, ölkəmiz inkişaf edir. Azərbaycanın bir hissəsi olan doğma Naxçıvanımız da inkişaf edir, müasirləşir. Azərbaycan dünyanın, Naxçıvan isə Azərbaycanın parlayan günəşidir.

Azyaşlı Vüqar Əmiraslanov Ali Məclisin Sədrinə təbriklərini, xoş arzu və diləklərini çatdırmışdır.



Teatr sənəti hər bir xalqın mədəni inkişafının göstəricisidir. Naxçıvanda teatr sənətinin tarixi qədim dövrlərə gedib çıxır. Xalq oyunları, meydan və qaravəlli, xüsusilə “Novruz” tamaşaları, bayram məzhəkələri teatr sənətinin ilk nümunələri olmaqla yanaşı, həm də xalqımızın yaradıcılıq təxəyyülünün imkanlarını və folklorumuzun zənginliyini göstərir. Bu gün muxtar respublikada teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının təqdim etdiyi “Novruz kompozisiyası” kollektivin peşəkarlığını göstərmişdir.



Naxçıvan Dövlət Universitetində təhsil alan xarici tələbələr milli dəyərlərimiz, adət-ənənələrimizlə tanış olur, milli musiqilərimiz və rəqslərimizi öyrənirlər. Universitetin yerli və xarici tələbələrindən ibarət rəqs qrupunun təqdim etdiyi “Xələfi” yallısı bunu bir daha təsdiq etdi.

Naxçıvan Musiqi Kollecinin “Sazçalanlar” ansamblı “Ovşarı” aşıq havası üstündə bayram təbriklərini çatdırmışdır.

Xalqımızın həyat tərzini və məişətini özündə əks etdirən folklorumuz çoxəsrlik tarixə malikdir. Həyat və məişətimizdə elə bir əhəmiyyətli hadisə olmamışdır ki, o, şifahi yaradıcılıqda öz əksini tapmasın. Bu səbəbdəndir ki, müxtəlif ayin, mərasim və əmək proseslərinin nəticəsi olaraq meydana gələn folklorumuz həm də milli kimliyimizin ifadəsidir. Baharın gəlişini təmtəraqla bayram edən əcdadlarımız Novruzla bağlı zəngin folklor nümunələri yaradıblar. Bu nümunələr bu gün də gənc nəslə öyrədilir, tədris və təbliğ edilir. Tədbirdə Naxçıvan Qızlar Liseyinin şagirdləri bayatılar, tapmacalar və inanclardan ibarət kompozisiya, eləcə də toxuculuq nümunələri nümayiş etdirmişlər.

Naxçıvan Dövlət Universitetinin tələbələri – Sima Bayramova, Nərmin Abuzərova, Aytən Allahverdiyeva, Səbinə Babayeva, Təbrizə Bayramova, Ellada Bayramova və Aysu Nağısoy Ali Məclisin Sədri ilə görüşmüşlər. Tələbələr muxtar respublikada ali təhsil almaq üçün yaradılan şəraitə, gənc nəslin dəyərlərimizə, adət-ənənələrimizə sədaqət ruhunda böyüdülməsi sahəsində görülən işlərə görə minnətdarlıq etmişlər. Ali Məclisin Sədri tələbələrlə xatirə şəkli çəkdirmişdir.

Azərbaycan xalqının zəngin tarixi-mədəni irsinin mühüm bir qolunu da muğam sənəti təşkil edir. Xalq yaradıcılığı günlərində zəngin folklor nümunələri ilə yanaşı, muğamlarımız da gənc nəslə aşılanır. Muğam sənətinin öyrənilməsi, təbliği və tədrisi sahəsində mühüm işlər həyata keçirilir, gənc muğam ifaçıları yetişdirilir. Naxçıvan Musiqi Kollecinin muğam üçlüyünün ifası tədbir iştirakçılarının alqışları ilə müşayiət olunmuşdur.

Naxçıvan şəhər sakini Gövhər Bağırova demişdir: Bayramlar firavanlıqdır, sevincdir,

*Ardı 3-cü səhifədə*






xoş niyyətdir. Biz – muxtar respublika sakinləri xoşbəxtik. Çünki firavanlıq şəraitində yaşayır, bayramları əmin-amanlıq şəraitində, xoş niyyətlərlə qeyd edirik.

Naxçıvan yallıları bu qədim diyarın tarixi, etnoqrafiyası, mərasimləri, mifoloji inancları, adət-ənənələri, ifaçılıq mədəniyyəti ilə sıx bağlı şəkildə inkişaf edib. Gəmiqayada daş üzərində həkk olunan kütləvi rəqs elementləri yallı sənətinin çox qədim tarixə malik olduğundan xəbər verir. Naxçıvan yallılarını "Naxçıvanın tacı" adlandıran ulu öndərimiz Heydər Əliyev deyirdi: ***"Yallılar bizim keçmişimiz, bu günümüz, gələcəyimizdir. Yallı Azərbaycan xalqının qəhrəmanlıq, mərdlik rəmzidir, tarixidir. Bu tarixi heç vaxt unutmaq olmaz. Naxçıvan torpağında bu tarix yaşayır, inkişaf edir və örnək olaraq gələcək nəsillərə qalır".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə Naxçıvanda yallı sənətinin inkişafı sahəsində kompleks tədbirlər görülmüş, yallılar ilk dəfə nota köçürülmüş, onun əsasında "Naxçıvan-Şərur el yallıları" kitabı nəşr olunmuşdur. Bu sahədə görülən işlərin davamı olaraq Ali Məclis Sədrinin tapşırığına əsasən Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi yallı sənəti ilə bağlı tədqiqatlar aparmışlar. Görülən işlərin davamı olaraq yallı sənətinin UNESCO səviyyəsində qorunması ilə bağlı tədbirlər görülmüş, "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilmişdir. Tədbirdə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin "Əlvan çiçəklər" mahnı və rəqs ansamblının təqdim etdiyi "Köçəri" yallısı, Musiqi Kollecinin və Naxçıvan Dövlət Filarmoniyasının yallı qruplarının çıxışları birlik və bərabərliyimizin ifadəsinə çevrilmişdir.

Bayram tədbirində Naxçıvan Musiqi Kollecinin "Naxçıvanqala" ritm qrupu da maraqlı kompozisiya ilə iştirak etmişdir.

Məktəbli Dərya Qənbərova Novruz bayramına həsr olunmuş şeir söyləmişdir.

Minlərlə şəhər sakininin və turistin iştirak etdiyi tədbirdə muxtar respublikada fəaliyyət göstərən istehsal və xidmət müəssisələri tərəfindən ictimai iaşə xidməti göstərilmişdir. Ailə əməyinə üstünlük vermək, təsərrüfat işlərinə başlamaq, məhsul istehsal etmək də Novruz bayramının mahiyyətində duran əsas amillərdəndir. Bayram tədbirinə ailə təsərrüfatları tərəfindən çıxarılan məhsullar, xüsusilə paketlənmiş milli şirniyyat və mətbəx nümunələri böyük marağa səbəb olmuşdur.

Həmin gün muxtar respublikanın rayon mərkəzlərində də Novruz bayramı münasibətilə şənliklər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Novruz bayramı muxtar respublikamızda yüksək əhval-ruhiyyə ilə qeyd edilib

## Şərur rayonu

Mart ayının 19-da Şərur şəhərində də ümumrayon bayram şənliyi keçirilib. Əvvəlcədən baharı, Novruzu təmsil edən müxtəlif şüar və plakatlarla, üçrəngli bayrağımızla bəzədilmiş meydanda rayon Mədəniyyət Şöbəsi musiqi və teatr kollektivlərinin hazırladıqları əyləncəli, rəngarəng proqramlar bayram şənliyinə toplaşanların alqışları ilə qarşılanıb. Tədbirin aparıcıları rayonda həyata keçirilən sosial-iqtisadi inkişafdan danışıblar.

Şərur şəhərindəki 2 nömrəli tam orta məktəbin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Sevil Hacıyeva ilə söhbətimiz zamanı dedi ki,



müstəqillik illərində Şərur rayonunun 50-dək yaşayış məntəqəsində geniş quruculuq tədbirləri həyata keçirilib. Hazırda bir neçə kənddə yeni obyektlərin tikintisi davam etdirilir.

Tədbirin musiqili-əyləncəli hissəsi başa çatdıqdan sonra qədim misgərlik, dulusçuluq və mətbəx nümunələrinin, toxuculuq məmulatlarının, kənd təsərrüfatı alətlərinin nümayiş etdirildiyi sərgiyə baxış olub. Sərgiyə Şərur şəhərindən və rayonun, demək olar ki, bütün kəndlərindən milli dəyərlərimizi əks etdirən nümunələr çıxarılmışdı.

Şənlikdə arzular, diləklər də bildirilib, Dədə Qorqud babamızın müdrik kəlamları xatırlanıb: "Torpağımız bərəkətli olsun, tonqallarımız heç vaxt sönməsin!"

## Babək rayonu



Babək rayonunda keçirilən bayram tədbirində rayonun mədəniyyət və incəsənət ustalarının ifalarında Novruzu, baharı vəsf edən mahnılar oxunub, xalq mahnıları, aşıq havaları səsləndirilib. Xalq çalğı alətləri, nağaraçalanlar və sazçalanlar ansambllarının ifaları, rayon Mədəniyyət Sarayının yallı qrupunun təqdim etdikləri rəqslər şənlik iştirakçıları tərəfindən alqışlarla qarşılanıb. Tədbirdə yundarama, cəhrədə yunəyirmə, xalçatoxuma, kirkirədə qovutçəkmə, daşda ətdöymə kimi qədim el nümunələrimiz də nümayiş etdirilib.

Rayonun məktəbdənkənar müəssisələri üzvlərinin əl işlərindən ibarət sərgi təşkil edilib, iaşə xidməti göstərilib.

Qeyd edək ki, rayonun iri yaşayış məntəqələri olan Nehrəm və Cəhri kəndlərində də bayram şənlikləri təşkil edilib.

## Ordubad rayonu

Ordubad rayonunda da bayram şənliyi yüksək səviyyədə keçirilib. Rayon mərkəzindəki tədbirlər meydanında təşkil olunan şənlikdə Ordubad mətbəxinin inciləri sayılan məcmeyi paxlavası, şəkərbura, qayğanaq, alana, sucuq, miyanpur, bir-birindən ləziz Ordubad yeməkləri, səmənilər, sənətkarların əl işləri, qədim məişət avadanlıqları göz oxşayırdı.

Aparıcılar vurğulayıblar ki, bu gün muxtar respublikamızda Novruz bayramı xüsusi təmtəraqla keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin milli dəyərlərimizə hörmət və ehtiramı Novruzun ümumxalq şənliyinə çevrilməsini təmin edib. Xalq yaradıcılığı günləri çərçivəsində muxtar respublikamızda bir-birindən maraqlı tədbirlərin keçirilməsi Novruz bayramının ümumxalq şənliyinə çevrilməsinin göstəricisidir.



Tədbirdə rayonun musiqi kollektivlərinin rəngarəng, maraqlı çıxışları olub.

## Culfa rayonu

Culfa şəhərindəki Mədəniyyət parkında ümumrayon şənliyi keçirilib.

Parkdakı meydanda üzərində xalq yaradıcılığı nümunələri – misgərlik, dulusçuluq, toxuculuq, rəsm əsərləri və milli yeməklər olan masalar düzülüb, qədim xalçalarımız sərgilənib. Meydanın ortasında tonqal qurulub.

Ulu Dədə Qorqud musiqinin müşayiətilə meydana daxil olaraq tədbir iştirakçılarını salamlayıb.

Tədbirdə Culfa şəhər 3 nömrəli tam orta məktəbin müəllimi Nəzakət Xudiyeva ilə həmsöhbət olduq. O, Novruzun xalqımızın yaranışı qədər qədim olduğunu söyləyərək qeyd etdi ki, zamanın müxtəlif dönəmlərində bu sevimli bayramımıza qadağalar qoyulsa da, Novruz ruhumuza hoparaq milli dəyərlərimizi toplu halında günümüzə qədər yaşadıb. Xalqımız öz müstəqilliyinə qovuşduqdan sonra Novruz bayramı da yüksək səviyyədə qeyd edilir.



Bayram şənliyi xoş ovqatla davam edib. Kosa, Keçəl və Keçinin məzhəkəli oyunu, rayonun musiqi kollektivlərinin ifa etdikləri mahnı və rəqslər bayram əhval-ruhiyyəsini daha da təravətli edib.

## Kəngərli rayonu

Kəngərli rayonunda da Novruz yüksək əhval-ruhiyyə ilə qeyd olunub.



Rayon Mədəniyyət Sarayının "Kəngər" instrumental ansamblının və rayon uşaq musiqi məktəbləri kollektivlərinin müşayiəti ilə müğənnilərin oxuduqları şən mahnılar tamaşaçılara xoş ovqat bəxş edib.

Vurğulanıb ki, bu günlər Kəngərli rayonunun sakinləri üçün həm də əlamətdar tarixlərdən biridir. Çünki bu rayon Novruz bayramı ərəfəsində – 2004-cü il martın 19-da yaradılıb. Bu barədə də bayram şənliyində ətraflı məlumat verilib. Bu il yaranmasının 95 illiyini qeyd etdiyimiz Naxçıvan Muxtar Respublikasının ən gənc rayonu olan Kəngərlidə ikiqat bayram havası yaşanır. Yaradıldığı gündən ötən müddət ərzində Kəngərli rayonu böyük inkişaf yolu keçib.

Beləcə, təbiətin oyanması, həyatın canlanması, ruzi-bərəkət, gözəllik, təravət rəmzi olan Novruz bayramı münasibətilə keçirilən ümumrayon şənliyi yüksək səviyyədə təşkili ilə yadda qalıb, hər kəs bu tədbirdən xoş təəssüratla, sevinc hissləri ilə ayrılıb.

## Şahbuz rayonu



Şahbuz şəhərində təşkil olunan Novruz şənliyində rayon Mədəniyyət Sarayının "Batabat" instrumental ansamblının solistlərindən Bəhruz Quliyev, Bayram Qubadlı, Mürsəl Tağılı və başqalarının ifasında səslənən mahnılar alqışlarla qarşılandı. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnıları dalğa-dalğa hər tərəfə yayılırdı. Milli geyimli uşaqlar meydanda rəqs edirdilər.

Bayramın əsas personajları olan Kosa və Keçəlin sərgüzəştlərindən, duzlu-məzəli çıxışlarından sonra kənd mədəniyyət evlərində fəaliyyət göstərən folklor qrupları öz bacarıqlarını göstərdilər.

Bayram günü şəhərdəki Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında təşkil olunmuş geniş iaşə və ticarət xidmətləri, qoğallı, paxlavalı çay süfrəsi burada yazı birgə qarşılayan şahbuzlular üçün əsl asudə vaxt və məzmunlu istirahət ab-havası yaratmışdı.

## Sədərək rayonu

*Sədərək rayonunda keçirilən tədbirdə qeyd olunub ki, Novruz xalqımızın mədəniyyətini, milli-mənəvi dəyərlərini özündə əks etdirən, dünyaya tanıtdıran qədim el bayramıdır.*

Tədbirdə rayonun mədəniyyət kollektivləri xalqımızın Novruz adət-ənənələrini, qədim el sənətkarlığı nümunələrini nümayiş etdiriblər. Sonra tədbir iştirakçıları Kosa və Keçəlin sərgüzəştlərinə tamaşa ediblər. Dədə Qorqud xeyir-dua verərək Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzulayıb.



Tədbir iştirakçıları xalq yaradıcılığı nümunələrindən və yerli sahibkarların istehsal etdikləri məhsullardan ibarət sərgiyə baxıblar.

Sədərək Kənd Mərkəzində də bayram tədbiri keçirilib.

**Xəbərlər şöbəsi**

## Dədəmiz Qorqud demişdir:



*-Torpağın yurd, Vətən olması üçün iki şərt lazımdır: biri odur ki, torpağı gərək əkib-becərəsən, o birisi odur ki, torpağı gərək yağılardan qoruyasan. Əgər torpağı əkib-becərmədin, qorumağa dəyməz. Torpağı qoruya bilmədin, əkib-becərməyə dəyməz.*

* * *

*-Bəy igid mərdlik göstərər, elini, obasını xilas edər.*

* * *

*-Oğul atanın yetirməsi, iki gözünün biridir.*

* * *

*-İgidin atını at, oxunu ox keçməz.*

* * *

*-Ana haqqı, Tanrı haqqı.*

* * *

*-Bu dünyanı ərənlər əql ilə bulublar.*

* * *

*-Qarşı yatan qara dağların sənə yaylaq olsun.*

* * *

*-Qardaşlı igidlər qalxar-qopar olar.*

* * *

*-El birliyi sel gücüdür, yıxar keçər, önündə duran olmaz.*

* * *

*-Haqq yandıran çırağın daim yansın!*

* * *

*-Ayıq başa, qoçaq ələ zaval gəlməz.*

* * *

*-Ağıllı oğul ocağının közüdür.*

*Dünya xalqları arasında zəngin milli-mənəvi dəyərləri ilə seçilən xalqımız yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutur. Toy-büsat mərasimi, bayram adət-ənənələri, Novruz şənlikləri, yas mərasimləri, təmizlik, düzlük, insanlıq kimi bəşəri, ali hisslər bu xalqın milli-mənəvi dəyərlərini özündə yaşadır. Milli bayramlarımız da tarixi ənənələrimizi daha da zənginləşdirən, mədəniyyətimizin əsrlərlə qorunub saxlanılmasına, təbliğinə geniş imkanlar açan belə dəyərlərdəndir.*

## Əcnəbi tələbələr Novruz haqqında

Əsrlərin sınağından süzülüb gələn, bir-birindən maraqlı adət-ənənələrilə günümüzə qədər qorunub saxlanan bayramlardan biri də Novruzdur. UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına salınan, BMT tərəfindən beynəlxalq bayramlar sırasına daxil edilən Novruz öz koloritinə görə dünyada kütləvi şəkildə qeyd olunan bayramlardan geri qalmır. Bu bayramın Azərbaycanda dövlət səviyyəsində keçirilməsi son illərdə ölkəmizə gələn turistlərin, eləcə də burada yaşayan əcnəbilərin də geniş marağına səbəb olub. Maraqlıdır, bəs bu gün muxtar respublikamızda təhsil alan əcnəbi tələbələr milli bayramımız olan Novruz haqqında nə düşünürlər? Onların bu mövzuda təəssüratlarını öyrənmək üçün hazırda Naxçıvan Dövlət Universitetində təhsil alan belə tələbələrdən bir neçəsi ilə görüşüb söhbət etdik.



Cənubi Koreya Respublikasının vətəndaşı olan Li Jin hazırda Naxçıvan Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası ixtisası üzrə II kurs magistrantıdır. Novruzla bağlı onunla etdiyimiz söhbətdə bildirdi ki, dünyada yaşayan müxtəlif xalqların mədəniyyəti, adət-ənənələri, milli dəyərləri hər zaman xüsusi marağıma səbəb olub. Bir çox ölkələrdə olmuşam, bunlarla yaxından maraqlanmışam. Lakin heç bir yerdə burada olduğu kimi bayramlarda, xüsusilə də Novruz bayramında insanlarda olan ruh yüksəkliyi, adət-ənənələrə bağlılıq, milli dəyərlərə ehtiramla rastlaşmamışam.

Bakalavr təhsili ilini də nəzərə alsaq, artıq 6 ildən çoxdur ki, Naxçıvanda yaşayıram. Burada olduğum müddətdə şən əhval-ruhiyyə ilə keçirilən bu bayramda rastlaşdığım adət-ənənələr, bir-birindən ləziz təamlar bu ölkənin nə qədər zəngin mədəniyyətə malik olduğunu sübut edir. Əvvəlki illərdə olduğu kimi, bu Novuz bayramını da naxçıvanlı dostlarımızla birlikdə qeyd edirik.

Digər həmsöhbətimiz isə Nigeriya Respublikasının vətəndaşı, Əczaçılıq ixtisası üzrə I kurs tələbəsi Yusuf Abdullahidir. O deyir ki, burada yazın gəlişinin müjdəçisi sayılan Novruz bayramının keçirildiyini ilk dəfə universitetdə tələbələrin iştirakı ilə təşkil olunan tədbirə mənim də iştirakçı kimi dəvət olunduğumda öyrəndim. Bizim ölkədə bu bayram qeyd edilmədiyindən, sözün açığı, əvvəllər Novruzla bağlı təəssüratlarım çox az idi. Tələbə teatr studiyasında bayram tədbiri üçün hazırlanan səhnəciklərdə iştirakım zamanı zəngin bayram ənənələrini əks etdirən müxtəlif maraqlı adətlər, Keçəl, Kosa personajları, Novruz oyunları mənə olduqca maraqlı gəldi. Ümumi götürdükdə onu deyə bilərəm ki, bu diyar qədim tarixi, zəngin incəsənəti və mədəniyyəti, özünəməxsus adət-ənənələri ilə seçilir. İnsanların qonaqpərvərliyi, mehribanlığı və səmimiyyəti isə Naxçıvanı bizə daha çox sevdirir.

Digər müsahibimiz Türkiyə vətəndaşı, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Müalicə işi ixtisası üzrə hazırlıq kursunun dinləyicisi İlayda Tabaru bayramla bağlı təəssüratlarını bizimlə bölüşdü. O dedi ki, bir neçə dəfə Novruz bayramını burada keçirmişəm. Bu bayram bizdə də qeyd olunur, lakin Naxçıvanda bayram ab-havası daha fərqli hiss olunur, xüsusilə kütləvi xarakter daşıyır. Bayramla bağlı adət-ənənələri, bişirilən milli yeməkləri çox bəyənirəm. Eyni zamanda Novruzla bağlı bayram tədbirləri, el şənlikləri maraqlı keçir.

Digər həmsöhbətimiz universitetin Stomatologiya ixtisası üzrə I kurs tələbəsi, İran İslam Respublikasının vətəndaşı Jahagir Nouran Rouhollahdır. O deyir ki, qədim el bayramı olan Novruz İranda da qeyd olunur. Lakin Azərbaycanda, eləcə də Naxçıvanda bu bayram daha böyük el şənlikləri ilə müşayiət olunur. Hər kəs bayrama xüsusi olaraq hazırlaşır. Adət-ənənələr lazımınca təbliğ olunur. Naxçıvanda bu bayramın geniş şəkildə, həm də yüksək səviyyədə keçirilməsinin nəticəsidir ki, İran İslam Respublikasından da hər il bu bayramı qeyd etmək üçün buraya xeyli insan gəlir. Düşünürəm ki, bu il də belə olacaq.

...Baharın gəlişi bir çox ölkələrdə qeyd olunsa da, Novruz bayramı bunun ən gözəl nümunəsidir. Xalqımız isə bu bayramı çox yüksək səviyyədə keçirir. Sovetlər birliyi zamanında milli adət-ənənələrimizi özündə əks etdirən bu bayramın keçirilməsi ilə bağlı müxtəlif məhdudiyyətlər qoyulsa da, müstəqilliyimizin bərpasından, xüsusilə ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra milli dəyərlərimizin qorunması, yaşadılması ümdə məsələ kimi daim diqqət mərkəzində saxlanılıb. Bu gün də milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması baxımından Novruz bayramı öz aktuallığını qoruyub saxlayır.

✍ **Gülcamal TAHİROVA**

## İqtisadi əməkdaşlığın genişləndirilməsi müzakirə edilib

Bu günlərdə Bakı Biznes Mərkəzində İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun təşkilatçılığı ilə Azərbaycan-İran biznes-forumu keçirilib. Tədbirdə hər iki tərəfdən turizm, sənaye, əczaçılıq, tikinti, ticarət, tekstil, maliyyə və digər sahələrdə fəaliyyət göstərən 150-dən çox sahibkar iştirak edib.

Biznes-forumda son illərdə ölkələrimiz arasında əlaqələrin ikitərəfli formatda, regional müstəvidə və beynəlxalq təşkilatlar çərçivəsində sürətlə inkişaf etdiyi, bu inkişafın sahibkarlar arasında əməkdaşlığın daha da genişləndirilməsinə əlverişli şərait yaratdığı vurğulanıb.

Azərbaycan-İran iqtisadi-ticarət əlaqələrinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edən biznes-forumda Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən “Cahan Holdinq” Kommersiya Şirkətlər İttifaqının, “Naxçıvan Avtomobil Zavodu” MMC-nin və “Dekor Qrup” MMC-nin nümayəndələrinin iştirakı təmin edilib.

Tədbir çərçivəsində Azərbaycan və İran iş adamları arasında əməkdaşlığın artırılması imkanlarının müzakirə olunduğu ikitərəfli görüşlər də keçirilib.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Pensiya və müavinətlər vaxtında ödənilib

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu fevral ayında əmək pensiyalarının maliyyələşdirilməsini vaxtından əvvəl başa çatdırıb, bu məqsədlə tələb olunan vəsait fondun xəzinə hesabından yerli orqanların xəzinə hesablarına yönəldilib, pensiyaçıların şəxsi hesablarına 11 milyon 926 min manat köçürülüb. Əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlər də vaxtında ödənilib, məcburi dövlət sosial sığorta ödəmələri almaq hüququ olan şəxslərin şəxsi hesablarına və ya poçt ünvanına müavinət ödənilməsi üçün 275 min manat vəsait köçürülüb.

Fevral ayında pensiya hüququ yaranmış 166 vətəndaşa əmək pensiyası təyin olunub, onlardan 103-ü yaşa, 16-sı əlilliyə, 47-si isə ailə başçısını itirməyə görə əmək pensiyasına çıxmış vətəndaşlar olub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında” 2019-cu il 7 fevral tarixli Sərəncamı ilə əmək pensiyalarının sığorta hissəsi və fərdi hesabların sığorta hissəsində toplanmış pensiya kapitalı 2018-ci il üzrə orta aylıq nominal əməkhaqqının müəyyən edilən illik artım tempinə uyğun olaraq 3 faiz indeksləşdirilərək artırılıb ki, bu da muxtar respublika üzrə 48 min 900 nəfərə yaxın əmək pensiyaçısına şamil olunub. Əmək pensiyalarının sığorta hissəsində müvafiq artımların aparılması ilə yanaşı, muxtar respublika üzrə fərdi uçot sistemində qeydiyyatda olan 172 min 309 sığortaolunanın fərdi hesabının sığorta hissəsində toplanmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsi isə xüsusi proqram vasitəsilə avtomatlaşdırılmış şəkildə həyata keçirilib.

“Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” Azərbaycan Respublikası Qanununa müvafiq olaraq fərdi uçot sistemində işlər davam etdirilib, muxtar respublikada əmək fəaliyyətinə yeni başlayan işçilərin fərdi uçot sistemində qeydiyyata alınması və sosial sığorta şəhadətnamələri ilə təmin olunması diqqətdə saxlanılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 220